# Azərbaycana gələn turistlərin sayı xeyli artıb

2019-cu ilin birinci yarısında Azərbaycanı ziyarət etmiş xarici qonaqların sayı 1.4 milyona çatıb ki, bu da ötən ilin eyni dövründə ölkəyə gəlmiş 1.3 milyon xarici ziyarətçi ilə müqayisədə 86 min və ya 6.5 faiz çox qonaq deməkdir.

Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, gələnlərin böyük hissəsini 29.4 faizini Rusiya (414 min), digər böyük hissəsini isə 24.3 faizini Gürcüstan (342 min) vətəndaşları təşkil edib. Gürcüstan üzrə artım 22.8 faiz və ya 64 min nəfər olub.

Qeyd etmək lazımdır ki, bu iki ölkədən gələn qonaqların sayı ümumi gələnlərin 50 faizdən çox hissəsini təşkil edib.

Türkiyədən gəlmiş qonaqların sayı 3.7 faiz artaraq toplam 148 minə çatıb. Cənubi və Mərkəzi Asiya ölkələrindən gələnlərin sayında yenə də sürətli artım müşahidə olunur - artım ilin ilk yarısı üçün uyğun olaraq 37.8 faiz və 50.2 faiz olub.

Azərbaycan üçün Cənubi Asiyanın əsas turizm bazarları Hindistan (27 min; 80.2% artım) və Pakistan (19 min; 24.4% artım), Mərkəzi Asiyada isə Qazaxıstan (20 min; 15.1% artım) və Türkmənistandır (21 min; 85% artım).

Səudiyyə Ərəbistanından gələnlərin sayında isə təxminən 80 faiz artım müşahidə olunur ki, bu da 15 min nəfər artımla 34 mindən çox xarici vətəndaş deməkdir.

2019-cu ilin iyun ayında gələnlərin sayında əhəmiyyətli dərəcədə artım müşahidə olunub - bu artım 17.2 faiz təşkil edib. Bu tendensiya özünü Azərbaycan turizmi üçün xarakterik olan bütün ölkələr üzrə göstərib.





## ELAN

**Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi, İ.Musayev küçəsi, ev 24 ünvanda yaşayan Hüseynov Kamil Vüqar oğlunun 285 saylı tam orta məktəbə məxsus 11 illik attestatı itdiyi üçün etibarsız sayılır.**


Kaspi.2019.-12 iyul.-S8.